| | |
|---|---|
| **"Dövlət qeydiyyatına alınmışdır"** | **Azərbaycan Respublikası** |
| | **Mərkəzi Bankı İdarə Heyətinin** |
| **Azərbaycan Respublikası** | **"16" avqust 2002-ci il** |
| **Ədliyyə Nazirliyi** | **tarixli qərarı ilə təsdiq edilmişdir.** |
| **Qeydiyyat N 2909** | |
| | **Protokol N 18** |
| **"02" sentyabr 2002-ci il** | |
| **Nazir** | **İdarə Heyətinin Sədri** |
| _______________ **F.F.Məmmədov** | ___________________ **E.S.Rüstəmov** |

# Azərbaycan Respublikasının bank sistemində digər aktiv və passivlərin uçot Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında», «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunlarına, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının normativ aktlarına uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikasının bank sistemində (bundan sonra «bank») digər aktiv və passivlərin uçot qaydalarını müəyyənləşdirir.

1.2. Maliyyə hesabatlarında digər aktiv və passivlər qrupuna daxil olan hesablardan qabaqcadan ödəmələrin, müəyyən edilməmiş məbləğlərin və digər müvəqqəti və təsadüfi xarakter daşıyan debitor və kreditor borcların uçotunun aparılması üçün istifadə olunur.

## 2. Əməliyyatların təsnifatı

2.1. Maliyyə hesabatlarında **digər aktivlər** aşağıdakı hesablar üzrə təsnifləşdirilir:

- digər debitorlar;
- müəyyən edilməmiş məbləğlər;
- qabaqcadan ödəmələr;
- əsas vəsaitlərin və qeyri-maddi aktivlərin alınması üçün qabaqcadan ödəmələr;
- təxirə salınmış xərclər;
- xarici valyutanın alınması/satılması üçün qabaqcadan ödəmələr;
- ödənilməkdə olan məbləğlər və digər aktivlər.

2.2. Maliyyə hesabatlarında **digər passivlər** aşağıdakı hesablar üzrə təsnifləşdirilir:

- digər kreditorlar;
- müəyyən edilməmiş məbləğlər;
- işçilərə ödəniləcək əmək haqqı və digər məbləğlər;
- səhmdarlara (payçılara) ödəniləcək dividendlər;
- təxirə salınmış gəlirlər;
- xarici valyutanın alınması/satılması üçün alınmış avanslar;
- ödənilməkdə olan məbləğlər və digər passivlər.

## 3. Uçot

**Digər aktivlər:**

3.1. Digər debitorlar hesabında təhtəl hesab üzrə əməliyyatlar, işçilərə əmək haqqı üzrə hesablaşmalar, işçilərin və müştərilərin müxtəlif bank əməliyyatları və bankın təsərrüfat fəaliyyəti üzrə borclarının və digər müvafiq xarakterli əməliyyatların uçotu aparılır.

3.2. Müəyyən edilməmiş məbləğlər hesabında bank və müştəri hesabları üzrə düzgün silinməyən və müəyyən hesaba aid edilmiş məbləğlərin və digər müvafiq xarakterli əməliyyatların uçotu aparılır.

3.3. Qabaqcadan ödəmələr hesabında hər hansı bir mala, işə (əsas vəsaitlər və qeyri-maddi aktivlərdən başqa) və ya xidmətə görə bank tərəfindən ödənilmiş qabaqcadan ödəmələrin uçotu aparılır.

3.4. Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin alınması üçün qabaqcadan ödəmələr hesabında əsas vəsaitlərin və ya qeyri-maddi aktivlərin alınması üçün qabaqcadan ödəmələrin uçotu aparılır.

3.5. Təxirə salınmış xərclər hesabında hesabat dövründə həyata keçirilmiş, lakin gələcək dövrə aid olan xərclərin uçotu aparılır. Bu xərclər aid olduğu dövrdə həmin hesabdan silinir və müvafiq xərc hesabında xərc kimi əks olunur.

3.6. Xarici valyutanın alınması/satılması üçün qabaqcadan ödəmələr hesabında xarici valyutanın alınması/satılması üçün qabaqcadan ödəmələrin uçotu aparılır.

3.7. Ödənilməkdə olan məbləğlər və digər aktivlər hesabında müəyyən hüquqi və fiziki şəxslərlə hesablaşmaların (rabitə üzrə hesablaşmalar, müxtəlif kommunal xidmətləri üzrə hesablaşmalar, plastik kartlarla əməliyyatlar üzrə hesablaşmalar, müştərilərin hesablarından silinən vəsaitlər və digər) uçotu aparılır.

**Digər passivlər:**

3.8. Digər kreditorlar hesabında bankın işçilərinə və müştərilərinə müxtəlif bank əməliyyatları üzrə borclarının, bankın təsərrüfat fəaliyyəti üzrə borclarının, (kreditə və ya alınmış, lakin dəyəri ödənilməmiş alınmış mallara görə və digər) icarə üzrə borclarının, müştərilərin bağlanmış hesablarının qalıqlarının və digər müvafiq xarakterli əməliyyatların uçotu aparılır.

3.9. Müəyyən edilməmiş məbləğlər hesabında banka daxil olmuş müəyyən edilməmiş məbləğlərin uçotu aparılır.

3.10. Işçilərə ödəniləcək əmək haqqı və digər məbləğlər hesabında bankın öz işçiləri ilə hesablaşmalarının uçotu aparılır.

3.11. Səhmdarlara (payçılara) ödəniləcək dividendlər hesabında bankın səhmdarlarına (payçılarına) olan dividend borclarının uçotu aparılır.

3.12. Təxirə salınmış gəlirlər hesabında hesabat dövründə həyata keçirilmiş, lakin gələcək dövrə aid olan gəlirlərin uçotu aparılır. Bu növ gəlirlərə iqtisadi səmərəsi gələcək dövrə aid olan gəlirlər aid edilir və aid olduğu dövrdə həmin hesabdan silinərək müvafiq gəlir hesabında gəlir kimi əks olunur.

3.13. Xarici valyutanın alınması/satılması üçün alınmış avanslar hesabında xarici valyutanın alınması/satılması üçün alınmış avansların uçotu aparılır.

3.14. Ödənilməkdə olan məbləğlər və digər passivlər hesabında müəyyən hüquqi və fiziki şəxslərlə hesablaşmaların (rabitə üzrə hesablaşmalar, müxtəlif kommunal xidmətləri üzrə hesablaşmalar, plastik kartlarla əməliyyatlar üzrə hesablaşmalar, müştərilərin hesabına daxil olan vəsaitlər və digər) uçotu aparılır.

## 4. Yekun müddəalar

4.1. Bu Qaydalar Dövlət qeydiyyatına alındığı tarixdən qüvvəyə minir.